## İslam bankçılığının tətbiqi genişlənir

***Bunun üçün beynəlxalq maliyyə institutlarından Azərbaycana 58 milyon dollar vəsait cəlb edilib***

«KPMG» beynəlxalq audit şirkətinin İslam maliyyələşməsi üzrə qrupunun rəhbəri Neil Miller bu yaxınlarda Bakıda keçirilmiş beynəlxalq konfransdakı çıxışında son illər dünya miqyasında İslam bankçılığının sürətlə inkişaf etdiyini, İslam maliyyələşməsinin əhatə dairəsinin xeyli genişləndiyini, qlobal maliyyə böhranı dövründə İslam bankçılığının  zərərsiz işlədiyini və orta hesabla ildə 10% artdığını bəyan edib. Onun sözlərinə görə, hazırda İslam bankçılığının sürətlə inkişaf etdiyi ölkə Malayziyadır və Azərbaycan bu ölkənin təcrübəsini öyrənə bilər.

Bu sahənin qeyri-müsəlman ölkələrdə də inkişaf etdiyini bildirən N.Miller deyib ki, həmin dövlətlərdə artıq müvafiq qanunvericilik bazası da mövcuddur. Buna misal olaraq o, Böyük Britaniyanı xatırladıb.

Vurğulanıb ki, son illərdə İslam bankçılığında istiqrazın alternativi olan sükuk alətinə də maraq güclənib və bu alətin bankçılıqda payı artmaqdadır. Ekspertin rəyinə görə, İslam bankçılığının hər hansı ölkədə tətbiqi və inkişaf etdirilməsi vergi qanunvericiliyinin adaptasiyasından da asılıdır və bu, İslam bankçılığının tətbiqi prosesində çətin tərəflərdən biridir.

Qeyd edək ki, artıq  ölkəmizdə də İslam bankçılığının tətbiqi layihəsinin həyata keçirilməsinə start verilmiş, bu məqsədlə Azərbaycan Beynəlxalq Bankında (ABB) İslam Bankçılığı Departamenti yaradılmışdır. Departamentin direktoru Behnam Qurbanzadə qəzetimizə bildirmişdir ki, respublikanın daxili maliyyə bazarında bu bankçılığın geniş tətbiqi ilk öncə mövcud qanunvericilik bazasının araşdırılmasını tələb edir. İslam bankçılığı məhsullarının əsas xüsusiyyətləri ticarətə, icarəyə və şərikli investisiya qoyuluşlarına əsaslanır ki, bu sahədə Azərbaycan Respublikasının «Banklar haqqında» Qanununda  maliyyə institutlarına bir qədər məhdudiyyətlər qoyulmuşdur. Buna baxmayaraq, tədqiqatlar göstərdi ki, bir sıra məhsulların tətbiqi hüquqi baxımından tam mümkündür. Hazırda bu istiqamətdə texniki məsələlərin həlli yekunlaşmaq üzrədir. Bank rəsmisinin sözlərinə görə, artıq ABB-nin İslam maliyyə institutları ilə uzunmüddətli əməkdaşlığı nətəcəsində ölkəyə 58 milyon ABŞ dolları məbləğində vəsait cəlb olunmuşdur və bu rəqəm yaxın gələcəkdə daha da artacaqdır.

Qeyd edək ki,  bu il ABB ilə «Bosnia Bank» arasında İslam maliyyələşməsi üzrə əməkdaşlıq çərçivəsində 1,5 mln. ABŞ dolları dəyərində müqavilə imzalanıb. Bu vəsait «vəkalə» (akkreditiv, zaminlik) aləti üzrə təqdim olunub. Daha 15 mln. dollar kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi üçün İslam İnkişaf Bankının xətti ilə cəlb edilib. Hazırda isə daha bir İslam bankçılığı məhsulu - «murabahə» (ticarət maliyyələşməsi) üzrə 150 mln. dollar həcmində sindikatlaşdırılmış kreditin cəlb olunması üçün danışıqlar aparılır.

B. Qurbanzadə bildirmişdir  ki, ABB  Fars körfəzi ölkələrinin maliyyə bazarlarına çıxaraq öz mövqelərini möhkəmləndirməkdədir. Bu sahədə uzunmüddətli fəaliyyət nəticəsində ABB-nin Birləşmiş Ərəb Əmirliklərində Dubay nümayəndəliyi açılmışdır və Qətər Krallığında yeni nümayəndəliyin açılmasına dair prinsipial razılıq əldə olunmuşdur. Bundan əlavə, bank Türkiyə, Malayziya və İndoneziya kimi ölkələrin təcrübəsini öyrənməklə gələcəkdə həmin dövlətlərin də bazarlarına çıxmağı planlaşdırır.

B. Qurbanzadə İslam bankçılığının ölkədə tətbiq edilməsi qərarının verilməsindən əvvəl bank tərəfindən daxili bazarın öyrənilməsi istiqamətində müxtəlif formatlı bazar araşdırmalarının, tətqiqatların və sorğuların aparıldığını qeyd edir. Bütün araşdırmalar nəticəsində istər korporativ, istərsə də pərakəndə seqmentlərdə İslam bankçılığı məhsullarına tələbatın yüksək olması faktoru müəyyən edilmişdir. Marketinq araşdırmaları biznes proseslərinin bütün mərhələlərində vacib amillərdən biridir. Bura bazar araşdırmaları, məqsədli seqmentlərin seçilməsi, maliyyə məhsulunun yaradılması, inkişaf etdirilməsi və dəstəklənməsi prosesləri daxildir. Bank bu sahədə müntəzəm olaraq marketinq araşdırmaları aparır və sonuncu tətqiqatlar İslam maliyyə bazarlarının tendensiyalarını və inkişaf dinamikasını əhatə edir.

Arzu İBRAHİMOVA